# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 30

Bakı şəhəri "5" mart 2018 il

**"Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2017-ci il 15 mart tarixli 8 nömrəli Əmrində dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması, Energetika Nazirliyinin 2018-ci il 10 yanvar tarixli 3 nömrəli əmri ilə nazirliyin aparatının yeni strukturunun və ştat cədvəlinin təsdiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**Əmr edirəm:**

1. "Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2017-ci il 15 mart tarixli 8 nömrəli Əmrində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanın 5-ci hissəsinə müvafiq olaraq müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 278-ci və 281-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxılmasını Energetika şöbəsi təmin etsin;

2.2. həmin Məcəllənin 279-cu, 280-cı və 282-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə fəaliyyət istiqamətlərinə uyğun olaraq baxılmasını Neft-qaz siyasəti və Energetika şöbələri təmin etsin;

2.3. həmin Məcəllənin 542-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxılmasını Neft-qaz siyasəti şöbəsi təmin etsin;

2.4. həmin Məcəllənin 457-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxılmasını İqtisadiyyat şöbəsi təmin etsin.".

1.2. 2-ci hissədən sonra aşağıdakı redaksiyada 2-1-ci və 2-2-ci hissələr əlavə edilsin:

"2-1. Neft-qaz siyasəti şöbəsinə, Energetika şöbəsinə və İqtisadiyyat şöbəsinə tapşırılsın:

2-1.1. inzibati xətalar haqqında işlərə baxılarkən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 18-ci və 54-cü maddələrinin tələbləri nəzərə alınsın.

2-1.2. baxılmış inzibati xətalar haqqında işlərin nəticələri haqqında rüblük statistik hesabatları növbəti rübün birinci ayının 5-dək Daxili nəzarət şöbəsinə təqdim edilsin.

2-2. Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi (bundan sonra – Agentlik) inzibati xətalar haqqında işlər üzrə protokolları Agentliyin Hüquq şöbəsinin rəyləri ilə birlikdə Nazirliyə təqdim edilməsini təmin etsin."

2. Həmin əmr ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyikliklər edilsin:

2.1. 4-cü hissədə "müavini" sözü "müavinləri" sözü ilə əvəz edilsin;

2.2. 5 - 7-ci hissələr aşağıdakı redaksiyada verilsin:

"5. Neft-qaz siyasəti şöbəsinin müdiri, müdir müavinləri, sektor müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi;

6. Energetika şöbəsinin müdiri, müdir müavini, baş məsləhətçisi, böyük məsləhətçisi;

7. İqtisadiyyat şöbəsinin müdiri, müdir müavini, baş məsləhətçisi, böyük məsləhətçisi;";

2.3. 8 - 10-cu hissələr ləğv edilsin.

3.Ümumi şöbə bu əmrin surətini nazirliyin aparatının struktur bölmələrinə çatdırılmasını təmin etsin.

4. İctimaiyyətlə əlaqələr və informasiya texnologiyaları şöbəsi bu əmrin və yenilənmiş "Azərbaycan Respublikası Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**

Azərbaycan Respublikası
Energetika Nazirliyinin 2017-ci il
"15" mart tarixli 08
nömrəli əmri il təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin**
**SİYAHISI**

1. Nazir;
2. Nazir müavinləri;
3. Aparatın rəhbəri;
4. Aparatın rəhbərinin müavinləri;
5. Neft-qaz siyasəti şöbəsinin müdiri, müdir müavinləri, sektor müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi;
6. Energetika şöbəsinin müdiri, müdir müavinləri, sektor müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi;
7. İqtisadiyyat şöbəsinin müdiri, müdir müavinləri, sektor müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi.